**08.12.2009**

**MƏNBƏ:** APA

**Bakı-Tiflis-Qars dəmir yolu layihəsi üzrə işlər 2012-ci ildə tam yekunlaşdırılacaq**

Bakı-Tiflis-Qars dəmir yolu bağlantısı (BTQ) layihəsi üzrə Gürcüstan ərazisində mövcud olan problemlər tam aradan qaldırılıb. Bu barədə Azərbaycanın Nəqliyyat Nazirliyindən məlumat verilib.

Artıq Gürcüstan tərəfinin iştirakı ilə yeni dəmir yolu xəttinin keçəcəyi ərazi layihələndirilib və dəmir yolunun keçdiyi bəzi yerlərdə əhali ilə yaranmış mübahisələr həll olunub. Hazırda yeni dəmir yolu xəttinin yol yatağının hazırlanması və tikintisi, mövcud yolun rekonstruksiyasının layihəsi üzərində işləri aparılır.

Bununla yanaşı, Gürcüstanın Türkiyə ilə sərhədində təkər dəyişmə məntəqəsi üçün yer seçilib. Burada hərəkət istiqamətindən asılı olaraq Avropa standartlarına uyğun 1 435 mm ölçülü təkərlər sovet standartlarına uyğun 1 520 mm ölçülü təkərlərlə, həmçinin əksinə dəyişdiriləcək.

Nazirlikdən onu da bildiriblər ki, Gürcüstanla Türkiyəni sərhəddə birləşdirəcək tunelin layihədə əvvəl nəzərdə tutulan yeri ərazinin sürüşmə ehtimalı nəzərə alınmaqla dəyişdirilib. İşlər belə davam edərsə, dəmir yolu ən geci 2012-ci ilin ortalarınadək hazır olacaq.

Qeyd edək ki, BTQ-nin tikintisi ilə bağlı Azərbaycan, Gürcüstan və Türkiyə arasında yekun sənəd 2007-ci il fevralın 8-də Tiflisdə imzalanıb. Yeni dəmir yolunun tikinti işlərinə 2007-ci il noyabrın 21-də start verilib. Azərbaycan yolun Gürcüstan ərazisinə düşən hissəsinin tikintisi üçün bu ölkənin «Marabda-Kartsaxi Dəmir Yolları» MMC-yə güzəştli şərtlərlə (illik 1%-lə 25 illiyə) 200 mln. ABŞ dolları məbləğində kredit ayırıb. Bu vəsait hesabına Gürcüstan ərazisində 29 km uzunluğunda yeni yol, Türkiyə ilə sərhəddə təkər dəyişmə məntəqəsi tikiləcək, həmçinin köhnə yol rekonstruksiya olunacaq. Layihənin ümumi dəyəri isə 600 mln. dollardan artıqdır. Dəmir yolunun Gürcüstan hissəsinin tikintisini Azərbaycanın «Azərinşaatservis» şirkəti həyata keçirir. Dəmir yolunun 2011-ci ilin ortalarına qədər istifadəyə verilməsi planlaşdırılır. Türkiyə ərazisində isə Gürcüstanla sərhəddən Qarsa qədər uzunluğu 76 km olan yeni dəmir yolu xətti tikiləcək.